# Çiliklənmiş arzular



*Arzu Haşımova 2006-cı ilin baharında açılmağa macal tapmayan qızıl gül qönçəsi kimi bir ayın içində soldu və dünyasını dəyişərək əbədiyyətə qovuşdu. Hələ uşaqlıqdan incəsənətin əzablı yollarına qədəm qoyaraq rəssamlığı özünə sənət seçən Arzu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Teatr-dekor bölümündə magistr pilləsini bitirirdi. Butaforçu rəssam kimi çalışdığı Dövlət Pantomima teatrında o, artıq püxtələşmiş teatr rəssamı kimi fəaliyyət göstərirdi. "Kölgə", "Maska" tamaşalarında səhnələrin bədii tərtibatı sadə olsa da süjetin açılmasında əhəmiyyətli rol oynamışdı. Qarşıdan gələn magistr pilləsinin müdafiəsi və bir də xəstəliyi olmasaydı, o, "Maska" tamaşasının butaforçu rəssamı kimi Trabzonda keçirilən Qara dəniz Dövlətlərinin VII Beynəlxalq Teatr Festivalında iştirak edəcəkdi. Fəqət acı taleyi onun bütün arzularını puç etdi. Onu sənətindən, ailəsindən, bacılarından, doğmalarından, müəllimlərindən və sənət dostlarından əbədi ayırdı...*





Avtoportretini yaradarkən kim bilir Arzu nələr düşünür, nələri arzulayırmış. Bəlkə də xəyalından qarşıda onu gözləyən nişan mərasimini keçirir, gözləri önünə heç vaxt unutmayacağı toy gününü gətirirmiş. Kim bilir...